UOT: 338
JEL: L 59

UZUN E. İ.
Elmi işçi, AMEA İqtisadiyyat İnstitutu

AZƏRBAYCAN RESPUBLİKASINDA EMAL SƏNAYESİNİN İXRAC POTENSİALININ MÖVCUD VƏZİYYƏTİNİN QIYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycan Respublikasında emal sənayesinin ixrac potensialının mövcüd vəziyyətinin tədqiq olunması

Tədqiqatın metodologiyası – müqayisəli və analitik təhlil, sistemli yanaşma

Tədqiqatın nəticələri – emal sənaye sahəsində idxal-ixrac imkanları mövcud vəziyyət araşdırılmış, yaranmış problemlərin həll istiqamətləri

Acar sözlər: qiymətləndirmə, idxal, ixrac, inteqrasiya, potensial, strategiya, iqtisadi islahatlar

GİRİŞ

Azərbaycanın davamlı inkişafını təmin etmək məqsədilə, təbii və maddi resurslardan səmərəli istifadə və iqtisadiyyatın sahələri arasında tarazlığın təmin olunması vacibdir. Son illərdə respublikanın kompleks, davamlı və dayanıqlı sosial-iqtisadi inkişafını təmin etmək üçün həyata keçirilən tədbirlər qeyri-neft sektorunun inkişafına təkan vermişdir. Neft gəlirlərinin axını ilə əlaqədar iqtisadiyyatın diversifikasiyası başlıca hədəf kimi seçilmişdir, ayrı-ayrı sahələrinin modernizasiya prosesləri intensivləşdirilmişdir, respublikanın xarici ticarət siyasəti inkişaf etmişdir. Hal-hazırda respublikanın mühüm vəzifəsi kimi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üçün əlverişli mühitin yaradılması və özəl sektorun iqtisadi fəallığını artırmaqdır. Bu məqsədlərə çatmaq üçün dövlət tərəfindən stimullaşdırıcı tədbirlər planı hazırlanmış və aidiyyatı qurumlara təqdim olunmuşdur.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi respublikada iqtisadi dayanıqlığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Nəticə etibarilə qeyri-neft sektorunun inkişaf etdirilməsi zəruriliyi və imkanları məsələləri respublikanın iqtisadiyyatı üçün vacib bir faktor rolunu oynayır. Qeyri-neft sənayesinin ixrac potensialının artırılması üçün iqitisadiyatın diversifikasiyalaşması və modernləşdirilməsi prosesləri həyata keçirilməli, innovasiyaların tətbiqi sürətləndirilməlidir. Eyni zamanda qeyri-neft sənayesinin ixrac potensialının inkişaf perspektivləri müəyyənləşməlidir.

Emal sənaye sahəsində mövcud vəziyyətin tədqiqi

Dünya iqtisadiyyatındakı stabilliyin pozulması, maliyyə bazarlarında müntəzəm yaşanan dalğalanmalar iqtisadi artıma mənfi təsirlərini göstərmişdir. Nəticə etibarilə dunya bazarında neftin qiyməti əvvəlki illərnən müqayisədə kəskin dərəcədə düşmüş və ölkəmizin neft sektoruna göstərdiyi mənfi təsirlərdən yan keçməmişdir. Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün qeyri-neft sənayesinin inkişaf istiqamətləri ön plana çəkilmişdir. Belə bir qənaətə gəlmək olar ki, qeyri-neft sənayesinin inkişafı gələcək perspektivlər üçün iqtisadiyatın strateji planlaşdırılmasında olduqca mühüm məsələ kimi qalmaqdadır.

Dünya bazarında neftin qiymətinin artıb-azalması ölkə iqtisadiyyatına mənfi təsir göstərir və gəlirlərin azalmasına gətirib cıxarıb. 2014-2016-cı illərdə xarici ticarətin həcmi 31 mlrd.016,3 milyon dollardan 17 mlrd.675,7 milyon dollara və ya 43% qədər azalıb, idxal 9 mlrd.187,7 milyon dollardan 8 mlrd.532,5 milyon dollara və ya 7% qədər, ixrac isə 21 mlrd. 828,6 milyon dollardan 9 mlrd.143,3 milyon dollara və ya 58% qədər azalmışdır, bu da neft və neft məhsullarının

qiymətlərində əhəmiyyətli azalma ilə əlaqədardır. 2016-ci ildə respublika xarici ticarət dövriyyəsi 186 ölkələrnən həyata keçirilmişdir.

Azərbaycanda iqtisadi sahədə aparılan çoxsaylı islahatlarının əsas məqsədi ölkənin neft gəlirlərindən asılılığını aradan qaldırmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu sahədə aparılan uğurlu islahatlar nəticəsində qeyri-neft sektorunda ildən-ilə məhsul istehsalı artır. Statistika Komitəsinin məlumatlarına əsasən, 2016-ci ildə emal sənayesində məhsul istehsalı 8 mlrd. 899,4 mln. manat təşkil etmişdir, bu da 2015-ci illə müqayisədə 1019 mln. manat və ya 13%, 2014-cu illə 10,3% çoxdur. 2016-ci ildə sənaye məhsulunun 22,9% emal sektorunda istehsal olunmuşdur. 2016-ci ildə respublikada emal sənayesində 1775 müəssisələri fəaliyyət göstərirdi, bu da 2014-cu illə müqayisədə 13 müəssisə çoxdur, işçilərin sayı 95,2 min nəfər təşkil edirdi.

2017-ci ilin 9 ayının göstəricilərinə əsasən qeyri-neft iqtisadiyyatında 2,5, qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alınıb.

Son illərdə respublikada həyata keçirilən sənayeləşmə tədbirləri çərçivəsində sənayenin diversifikasiyası genişləndirilmiş, yeni istehsal gücləri istifadəyə verilmiş, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr yaradılmışdır.

Sumqayıt Texnologiyalar Parkının, Alüminium İstehsalı Kompleksinin və Azərbaycan Polad İstehsalı Kompleksinin yaradılması, Bakıda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodlarının qurulması, Sumqayıtda neft-kimya sənayesində modernizasiya işlərinə başlanılması və Karbamid Zavodunun inşası, Qaradağda Sement Zavodunun istehsal gücünün artırılması və yeni zavodun inşası, Qazaxda, Naxçıvanda yeni sement zavodlarının tikilib istifadəyə verilməsi qeyri-neft sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirilməsi üçün geniş imkanlar yaradır.

Ölkədə qeyri-neft sənayesinin əsas halqalarını formalaşdıran maşınqayırma, avadanlıq istehsalı, cihazqayırma və tikinti materiallarının istehsalı sahələrində yeni rəqabətqabiliyyətli müəssisələr yaradılmış, o cümlədən Gəncədə traktor və kənd təsərrüfatı texnikası, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, Sumqayıtda günəş panellər, Qaradağda metal konstruksiyalar, Hacıqabulda seramik plitələr istehsalı müəssisələri qurulmuşdur. Bakıda və regionlarda toxuculuq, geyim istehsalı, dəri məmulatları və ayaqqabı istehsalı, kağız və karton istehsalı, mebel istehsalı və digər qeyri-neft emal sənayesi sahələrində fəaliyyət göstərən yeni müəssisələr tikilib istifadəyə verilmişdir.

Kənd təsərrüfatının inkişafı və regionlarda infrastruktur təminatının yaxşılaşdırılması son illərdə ərzaq məhsullarının istehsalı sahəsində rəqabətqabiliyyətli yeni müəssisələr yaradılmışdır. Ötən dövr ərzində İmişlidə Şəkər Zavodu, Abşeronda Duz Zavodu, Sumqayıtda Bitki Yağları Emalı Zavodu, Oğuzda Qarğıdalı Emalı və Qlükoza İstehsalı Zavodu, müxtəlif bölgələrdə süd kombinatları, konserv zavodları və digər ərzaq məhsulları istehsalı müəssisələri istismara verilmişdir.

Müasir dövrdə ölkədə sənayeləşmə prosesinin sürətləndirilməsində müvafiq institutların – Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı və Yüksək Texnologiyalar Parkını yaradılması və onların fəaliyyətinin genişləndirilməsi mühüm rol oynayır.

Azərbaycan Respublikasının uzunmüddətli davamlı iqtisadi inkişafı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramda" əks olunub. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında" qeyd olunur ki, sənayenin inkişafı üçün başlıca şərt makroiqtisadi sabitliyin qorunması və əlverişli investisiya mühitinin yaradılmasıdır. Müşahidələr göstərir ki, sənayenin inkişafı daxili bazarın həcmindən asılı olmayaraq, idxal əvəzləyici yanaşmadan ixrac

yönümlü istehsal modelinə keçidi tələb edir.” İlk növbədə yerli xammala əsaslanan rəqabətqabiliyyətli ağır sənaye istehsalının genişlənməsi zəruridir. Son dövrlərdə ölkədə yerli xammal hesabına daxili tələbatı ödəyəcək həcmdə sement istehsal gücləri qurulmuşdur. Dövlət Proqramının əhatə etdiyi dövr ərzində metallurgiya, neft-qaz emalı, neft-kimya və kimya sahələrində müasir tələblərə uyğun yeni istehsal güclərinin qurulması zəruridir. Xüsusilə, metallurgiya və neft-kimya sahələrində baza məhsullarının istehsalı son məhsul istehsal edən çoxlu sayda müəssisələrin yaradılmasına təkan verəcəkdir.

Ölkədə əsasən yeyinti sənayesi, yüngül sənaye, mebel sənayesi, tikinti materiallarının istehsalı sahələrində qabaqcıl texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli çoxlu sayda müəssisələr qurulmuşdur. Dövlət Proqramda qeyd olunur ki, bu sahələrdə istehsal həcmlərinin genişləndirilməsi ilə yanaşı, digər sahələrdə, o cümlədən kimya, metallurgiya, maşın və avadanlıq istehsalı, alternativ enerji qurğu və avadanlıqlarının istehsalı, müdafiə sənayesi sahələrində yeni emal müəssisələrinin yaradılması tədbirləri davam etdirilməlidir.

Son illərdə respublikada həyata keçirdiyi iqtisadi strategiyanın əsaslarından biri olan ixrac potensialının stimullaşdırılmasının ölkə iqtisadiyyatının qarşısında duran başlıca problemlərdən biri kimi böyük əhəmiyyəti vardır. Belə ki, dövlət başçısının 28 yanvar 2016-ci il tarixli “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamının əsas məqsədi ondan ibarətdir ki, qeyri-neft məhsullarının ixracı zamanı gömrük bəyannamələrində göstərilən dəyərin 3%-i dövlət vəsaiti hesabına sahibkaraödəniləcək. Eyni zamanda, bu sərəncam ilə əlaqədar olaraq ixrac potensialının stimullaşdırılması məqsədilə iqtisadiyyat nazirliyində ixrac prosedurlarının sadələşdirilməsi, beynəlxalq təcrübə əsasında ixrac təşviqi mexanizmləri, o cümlədən ixrac kreditləşdirilməsi, ixracat bazarında təşviqat brendləşmə, logistikanın yaxşılaşdırılması ilə bağlı təkliflər hazırlanıb və ixrac potensialının stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinə mənşə sertifikatlarının bir gün ərzində verilməsi nəzərə alınıb.

Azərbaycanda ixrac potensialını genişləndirmək və ixracın strukturunu optimal vəziyyətə gətirmək üçün kompleks tədbirlər görülür. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq ilk növbədə qeyri-neft sahələrinin ixracatını stimullaşdıran və elmi cəhətdən əsaslandırılmış uzunmüddətli strateji dövlət proqramı işlənib hazırlanıb. Bu proqramın reallaşdırılmasında isə ixracyönümlü sənaye müəssisələrini təşkilati və maliyyə cəhətdən dəstəkləyən xüsusi bir mexanizmin yaradılması lazım gəlir. Bu işdə ixracın dövlət tərəfindən stimullaşdırılması ön sıraya keçir.

Azərbaycan prezidenti İlham Əliyev ötən ilin dekabrın 6-da ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların reallaşdırılmasını təmin etmək məqsədilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli sərəncamına uyğun olaraq müvafiq Strateji Yol Xəritəsində göstərilmişdir ki, “ixrac potensialından maksimum istifadə edilməsi və qeyri-neft sektorunun diversifikasiyasının qlobal mühitdə daha da dərinləşməsi mühüm strateji hədəf hesab edilir”. Strateji Yol Xəritəsi Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyin və sosial rifahın daha da artırılmasını təmin edəcək.

Strateji Yol Xəritəsinin 2016-2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur. Bu strateji hədəflər ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi və məsləhət-informasiya xidmətləri

sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərini əhatə edir.

Strateji yol xəritəsinin tətbiqi şəraitində ölkənin qarşısında duran əsas vəzifələrdən biri ixracın artırılması və stimullaşdırılmasıdır. Belə ki, 2017-ci ilin 18 apreldə Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində ölkədə ixrac potensialının bir daha yaxşılaşdırılması ilə əlaqədar prezident İlham Əliyev demişdir: "Hazırda birinci yerdə fındıqdır, ikinci yerdə pomidordur, üçüncü yerdə xurmadır, dördüncü yerdə şəkərdir, beşinci yerdə pambıqdır - qeyd etdiyim bu beş pozisiya üzrə ölkəmizə keçən il 350 milyon dollar valyuta gəlib və iki dəfə artırmaqla nə qədər böyük valyuta əldə edəcəyik.

Sənaye məhsulları arasında isə birinci yerdə plastik məmulatlardır, ikinci yerdə alüminium və ondan hazırlanan məmulatlardır, üçüncü yerdə qara metallar və onlardan hazırlanan məmulatlardır, dördüncü yerdə qiymətli metallardan hazırlanan məmulatlardır, beşinci yerdə kimya sənayesi məhsullarıdır."

Azərbaycanda dövlət tərəfindən sahibkarlar üçün infrastruktur yaradılıb, kreditlər, subsidiyalar verilir, fermerlər vergilərdən azad oldular, "Aqrolizinq" yaradılıb, texnika alınıb gətirlir və paylanılır, yanacaq da həmçinin.

Son 5 ildə Azerbaycanda ixracin genişləndirilməsi, qeyri-neft ixracının artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində həm ixracla bağlı prosedurların sayının azaldılması, həm ixracın stimullaşdırılması tədbirləri, eyni zamanda ixracla bağlı müxtəlif alətlər vasitəsilə sahibkarlara yeni imkanlar yaradılır. "Made in Azerbaijan" brendinın dünyada tanıdılması, ixracin missiyalarının və vahid ölkə stendlərinin, sərgilər təşkili, xaricdə patent və sertifikatların alınması ilə bağlı dəstək və diger mexanizmlər həyata keçirilir. "Azexport" portalı, "Made in Azerbaijan" brendi, investisiya və ixrac təşviqi yaradılıb.

"Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" sərəncamına əsasən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzin nəzdində yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmaq, beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirmək məqsədilə respublikada istehsal olunan mallar və onların istehsalcıları barədə məlumatları əks etdirən "Azexport.az" internet portalı yaradıldı.. Portalın missiyası Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi və onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platforma yaradılmasıdır. Portal dünyanın elektron satış şəbəkələri ilə inteqrasiyası əsasında Azərbaycan mallarını dünyaya sərgiləyir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərən "Bir Pencərə" İxraca Dəstək Mərkəzə müraciət edən ixracatçının bütün sənədləri doğru olarsa, cemi 4 saat müddətində ixrac etmək istədiyi məhsula aid bütün sertifikatları əldə edə bilir, heç bir dövlət qurumlara üz tutmadan sahibkar bir gun ərzində rahat şəkildə burada istədiyi sertifikatı ala bilir.

Gömrük statistikasın məlumatına əsasən, 2016-ci ildə respublikanın qeyri-neft sənaye sektor üzrə ixrac olunan məhsulların həcmi 1 258 352,75 min dollar təşkil etmişdir. (cədvəl1). 2014-cü ildə qeyri-neft sektorunun ixracında payi bütün sənayenin ixracında payı 7,6% olmuşdursa, 2016-ci ildə bu göstərici 13,76% artmışdır. Cədvəldə verilən məlumatlardan da göründüyü kimi, respublikada 2016-cı ildə 2015-ci illə müqayisədə 372 milyon 786,22 min dollar dəyərində meyvə və tərəvəz ixrac olunub, artım 119,5% təşkil etmişdir. Natural ifadədə meyvə və tərəvəz ixracın həcmi 2016-cı ildə 378 min 177,24 ton təşkil etmişdir, bu da 2015-ci illə müqayisədə 85 min ton (və ya 29%-ə qədər) çoxdur,. 2016-cı ildə qara metalların və məhsulların ixracı 96 milyon 076,40 min dollar təşkil edib ki, bu da 2015-ci ildəkindən 2,8 dəfə çoxdur.2016-cı ildə alüminium və məhsulların ixracı 98 milyon 056,93 min dollar təşkil edib, 2015-ci illə müqayisədə isə 114% artıb. Plastik və ondan olan məhsulların ixracı 98 milyon 980,87 min dollar, kimya sənayesinin ixracı isə 55,892,22 min dollar təşkil olunub.2016-ci ildə pambıq lifinin ixracı 18 milyon 013,28 min dollar təşkil edib, 2015-ci ilə nisbətən artım 125 faiz təşkil olunub.

İxrac əməliyyatları aparılmış əsas ölkələr İtaliya (17,06%), Türkiyə (12,39%), Tayvan (8,72%), İsrail (7,26%), Almaniya (6,68%), Fransa (5,40%), Hindistan (4,78%) , Rusiya (4,48 %), Gürcüstan (3,76 %), Çin (2,97%).

Qida məhsullarının istehsalının dinamikasını nəzərdən keçirsək, dayanıqlı artım tempi müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 2016-ci ildə ərzaq məhsullarının istehsalı, içkilər və tütün daxil olmaqla, 3 milyard 506,5 mln.manat təşkil etmişdir ki, bu da 2014-cü illə müqayisədə 122,9% çoxdur. 2016-ci ildə 517 qida sənayesi müəssisələrində 25,1 min nəfər çalışmışdır.

Cədvəl № 1

2015-2016-ci illərdə ixrac olunan əsas mallar (min ABŞ dolları)

Malın adı	**2015-ci il ərzində**		**2016-cı il ərzində**		**2015-ci ilin ixracına nisbətən %-lə**		**2016-cı ilin ümumi ixracına nisbətən %-lə**
	Miqdar	**Statistik dəyər**	**Miqdar**	**Statistik dəyər**	**Miqdar**	**Statistik dəyər**	
İxrac - cəmi	-	**12 729 138.45**	-	**9 143 279.75**	-	**71.83**	**100.00**
Qeyri-neft sektoru	-	1 606034.35	-	1 258352,75	-	78,4	13.76
Elektrik enerjisi, min kVt/saat	293 757.62	17 225.78	646 757.89	28 344.46	220.17	164.55	0.31
Meyvə-tərəvəz, ton	293 245.38	311 927.50	378 177.24	372 786.22	128.96	119.51	4.08
Çay, ton	4 287.53	19 501.53	1 137.70	6 178.82	26.54	31.68	0.07
Bitki və heyvan mənşəli piylər və yağlar, ton	76 180.28	153 335.34	16 064.23	17 113.84	21.09	11.16	0.19
Şəkər, ton	220 828.06	212 087.89	108 363.32	62 030.01	49.07	29.25	0.68
Spirtli və spirtsiz içkilər, min ABŞ dolları	-	25 829.47	-	18 731.30	-	72.52	0.20
Kimya sənayesi məhsulları, ton	238 548.38	79 985.81	276 036.35	55 892.22	115.72	69.88	0.61
Plastmassa və onlardan hazırlanan məmulatlar, ton	160 777.41	112 451.54	145 863.75	98 980.87	90.72	88.02	1.08
Pambıq iplik, ton	8 431.04	14 390.16	9 362.50	18 013.28	111.05	125.18	0.20
Qara metallar və onlardan hazırlanan məmulatlar, ton	85 089.93	34 708.04	223 221.73	96 076.40	262.34	276.81	1.05
Alüminium və ondan hazırlanan məmulatlar, ton	62 277.88	86 147.96	66 239.34	98 056.93	106.36	113.82	1.07
Digərləri	-	538 443.33	-	386 148.40	-	71.72	4.22

Mənbə: http://customs.gov.az/

Ölkəmizdə istehsal olunan bir çox qida sənayesi məhsulları dünya bazarına ixrac olunmaqdadır. 2016-ci ildə ərzaq məhsullarının, içkilər və tütün daxil olmaqla, ixracı 524 mln. 409,78 min dollar təşkil etmişdir ki, bu da 2015-ci illə müqayisədə 68,1% təşkil edir (cədvəl 2).

Belə ki, 2016-cü ildə 2015-cü illə müqayisədə süd məhsulları, quş yumurtası, təbii bal və heyvan mənşəli digər ərzaq məhsullarının ixracı 48,3 dəfə artaraq 2014-cü ildə 2 mln. 215,0 min dollar təskil etmişdir, ət və ət qida məhsullarının - 2,3 dəfəartaraq 172,4 min dollar təskil etmişdır, heyvan mənşəli və s.məhsullarının – 6 dəfə artaraq 794,4min dollar təskil etmişdır; tərəvəzlər, meyvəköklülər və kök yumruları – 2,3 dəfə artaraq 98 mln.919,2min dollar təskil etmişdır; unüyütmə

və yarma sənayesi məhsulları, maya, nişasta – 4,8 dəfə artaraq 136,1min dollar təskil etmişdir; şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları151,2%-ı artaraq 221 mln. 378,6min dollar təskil etmişdir; yeməli meyvələr və qoz-fındıq, sitrus bitkiləri – 170,8% artaraq 192 mln. 165,3 min ABŞ dollar; spirtli və spirtsiz içkilər – 2,1 dəfə artaraq31mln.875,4 min dollar və s. təşkil etmişdir. Respublikanın qida sənayesinin məhsulları əsasən Rusiya, İran, Türkiyə və Gürcustana ixrac olunur.

Cədvəl № 2

2015-2016-cı illərdə Azərbaycana qida məhsullarının, içki və tütün daxil olmaqla idxalı və ixracı min ABŞ dolları

№	Malqrupununadı	İxrac			İdxal		
		2015-ci il	2016-ci il	2015-ci illə nis-bətən %-lə	2015-ci il	2016-cı il	2015-ci illə nis-bətən %-lə
A	B	1	2	3	4	5	6
	Qida məhsulları, içki və tütün	**770 003,12**	**524 409,78**	**68,1**	**1 303 570,09**	**1 528 029,15**	**117,2**
02	Ət və qida üçün yararlı ət əlavələri	20.00	57.65	288.27	19 858.44	38 622.41	194.49
03	Balıqlar və xərçəngkimilər, mollyusklar və digər su onurğasızları	0.00	158.19	0.00	7 198.23	15 384.80	213.73
04	Süd məhsulları; quş yumurtası; təbii bal, başqa yerdə adı çəkilməyən və təsnif olunmayan heyvan mənşəli ərzaq məhsulları	1 579.17	2 818.74	178.50	57 193.36	93 167.91	162.90
05	Başqa yerdə adı çəkilməyən və ya təsnif olunmayan heyvan mənşəli məhsullar	445.69	622.49	139.67	108.90	226.04	207.57
07	Tərəvəz və bəzi yeməli meyvəköklülər və kök yumruları	91 679.71	129 030.88	140.74	22 633.40	62 007.03	273.96
08	Yeməli meyvələr və qoz-fındıq; sitrus meyvələri	220 247.79	243 755.34	110.67	35 413.53	72 997.51	206.13
09	Qəhvə, çay, mate vəya paraqvay çayı və ədviyyatlar	19 505.48	6 197.67	31.77	17 414.81	48 954.76	281.11
10	Dənli bitkilər	61.26	2 618.72	42.74 dəfə	343 376.34	345 271.63	100.55
11	Unüyütmə-yarma sənayesi məhsulları; səməni; nişastalar	199.66	81.30	40.72	16 455.69	17 396.49	105.72
12	Yağlı toxum və bar; digər toxumlar, bar və taxıl; dərman bitkiləri və texniki məqsədlər üçün bitkilər; saman və yem	1 358.62	2 880.11	211.99	10 534.79	26 325.57	249.89
13	Təmizlənməmiş təbii şellak; kitrələr, qatranlar və digər bitki şirələri və ekstraktları	2 598.80	1 410.93	54.29	193.02	628.78	325.76
14	Toxuma (hörgü) məmulatlarının hazırlanması üçün bitki mənşəli materiallar;	82.39	50.22	60.95	542.60	563.29	103.81
15	Heyvan vəya bitki mənşəli piylər və yağlar və onların parçalanması nəticəsində alınan məhsullar; hazır yeyinti piyləri;	153 335.34	17 113.84	11.16	83 834.13	144 137.75	171.93
16	Ətdən, balıqdan vəya xərçəngkimilərdən,	4 015.54	366.43	9.13	9 193.24	18 816.06	204.67
17	Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları	212 207.48	62 275.39	29.35	149 858.44	187 593.09	125.18
18	Kakao və ondan hazırlanan məhsullar	7 648.79	4 940.71	64.59	33 718.26	48 092.56	142.63
19	Taxıldan, undan, nişastadan vəya süddən alınan hazır məhsullar; un qənnadı məmulatları	1 487.60	1 094.23	73.56	57 928.92	74 836.72	129.19
20	Tərəvəzlərin, meyvələrin, qoz-fındığın vəya bitkilərin digər hissələrinin emal məhsulları	10 856.76	11 414.91	105.14	20 759.70	25 205.45	121.42
21.	Müxtəlif ərzaq məhsulları	3 499.83	1 976.99	56.49	32 375.66	52 336.40	161.65
22	Spirtli və spirtsiz içkilər və sirkə	25 829.47	18 731.30	72.52	63 299.04	58 428.55	92.31
23	Yeyinti sənayesinin qalıqları və tullantıları; heyvanlar üçün hazır yemlər	3 937.42	7 914.86	201.02	24 071.43	43 919.89	182.46
24	Tütün və tütünün sənaye əvəz ediciləri	9 406.32	8 898.88	94.61	297 608.16	153 116.46	51.45

Mənbə: http://customs.gov.az/

Qida məhsullarının istehsal həcminin artmasına baxmayaraq, ölkənin yeyinti məhsullarının müxtəlif növlərinə idxalından yüksək asılılığı hələ də qalmaqdadır. 2016-cı ildə ərzaq məhsulları, içkilər və tütün idxalı 1 mlrd. 528 mln. 029,15 min dollar təşkil etmişdir ki, bu da 2015-ci ilin göstəricinsindən 117,2% çoxdur. 2016-ci ildə 2015-ci illə müqayisədə ət və ət məhsullarının idxalı 195%, balıqlar və xərçəngkimilər, digər su onurğasızları – 213,7%, tərəvəz və bəzi yeməli meyvəköklülər və kök yumruları 2,7 dəfə, süd məhsulları; quş yumurtası; təbii bal, başqa yerdə adı çəkilməyən və təsnif olunmayan heyvan mənşəli ərzaq məhsulları 162,9%, şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları 125%, taxıldan, undan və ya süddən alınan hazır məhsullar, unlu qənnadı məmulatları – 129%, tərəvəz, meyvə, qoz-fındıq və bitkilərin digər hissələrinin emal məhsulları– 121,4%, unüyütmə və yarma sənayesi məhsulları, maya, nişasta –105,7%, taxıldan, undan və ya süddən alınan hazır məhsullar, unlu qənnadı məmulatları –129,9%, və başqa ərzaq növlərinin idxalı artmışdır.

Qeyd etmək lazımdır ki, 2015-2016-cı illərdə spirtli və spirtsiz içkilər və sirkə idxalında 92,3%-ə qədər, tütün və tütünün sənaye əvəz ediciləri idxalında 51,5%-ə qədər azalma müşahidə olunur.

Qida məhsulları ilə təminatında idxaldan asılılıq səviyyəsi ilbəil azalma müşahidə olunur. Belə ki, Ərzaq məhsulların Balansına əsasən, 2016-cı ildə 2014-cü illə müqayisədə dənlilərin üzrə 2,9%-ə, arpa 15,3%-ə, qarğıdalı 14,4%-ə, vələmir 23,5%-ə, sair növ dənlilər 27,1%-ə, mal əti və ət məhsulları 6,6%-ə, qoyun (keçi) əti və ət məhsulları 0,8%-ə, süd və süd məhsulları 11,3%-ə, baliq və balıq məhsulları 9,2%-ə, təmizlənmiş düyü 1,7%-ə, un 1,5%-ə, tortlar və sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair 2,1 dəfəyə, suxari və peçenye istehsalı, uzun müddət saxlanan qənnadı məmulatları 12,2%-ə, şəkərli-unlu qənnadı məmulatları 18,8%-ə, makaron məmulatları 0,6%-ə, bitki yağları 12,3%-ə, kərə yağı 23,5%-ə, bütün növ pendirlər 7,9%-ə, qatiq, qaymaq, yoqurt və s. məhsullar 1,2%-ə, şəkər istehsalı üçün xammal 1,9%-ə, şəkər 11,9%-ə, çay 23%-ə, duz 14,5%-ə, şirinləşdirilməmiş mineral və qazlı sular 0,9 faizə qədər idxaldan asılılıq səviyyəsiazalma müşahidə olunur.

Qeyd etmək lazimdır ki, 2016-ci ildə idxaldan asıllılıq səviyyəsi hələ də yüksək olaraq təmizlənmiş düyü 90%, şəkər istehsalı üçün xammal 94,1%, yarmalar (bütün növləri) 83,2%, şəkərli-unlu qənnadı məmulatları 79,2%; suxari və peçenye istehsalı, uzun müddət saxlanan qənnadı məmulatları 69,9%; çay 60,6%, makaron məmulatları 52,8%, bitki yağları 68,7%, kərə yağı 24,7%, paxlalılar 31,7%, buğda 47,1%, duz 23,3%, kartof 18,1%, quş əti və ət məhsulları 20,9 faiz təşkil edir.

Emal sənaye sahəsinin ixrac potensialının yüksəldilməsi istiqamətləri

Aparılan təhlil göstərir ki, respublikada qida məhsulları istehsalı xeyli artmışdır. Tələbatın əsas hissəsi yerli istehsal hesabına, şəkər istehsalı üçün xammal,təmizlənmiş düyü, şirniyyat məhsulları, tütün, bitki yağları, çay və makaron, suxari və peçenye istehsalı, uzun müddət saxlanan qənnadı məmulatları isə idxal hesabına odənilir.

Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasətin hədəflərindən biri ölkənin idxaldan asılığını azaltmaq və qida məhsullarının özünütəminetmə səviyyəsini artırmaqdır. Görülən tədbirlər nəticəsində bu gun qida sənayenin xammal bazası olan bir çox kənd təserrüfatı məhsulları üzrə daxili tələbatımızı təmin edirik. 2016-cı ilin yekunlarına görə, hal-hazırda respublika bu məhsullarla daxili tələbatını tamamilə ödəyir. Məsələn, mal əti 93,5%, qoyun əti 98,7%, quş əti 79,1%, süd və süd məhsulları 87,7%, yumurta 98,8%, kartof 85,5%, bütün növ tərəvəz 105,4%, bostan məhsulları 100,2%, meyvə və giləmeyvə 116,4%, üzüm 89,2 faiz. Bundan başqa, yerli istehsal hesabına tələbatımız kərə yağı 75,6%, buğda üzrə 52,9%, arpa üzrə 101,7%, qarğıdalı üzrə 71,1 faizi ödənilir. Rəqəmlərdən aydın görünür ki, əsas hədəf - idxaldan asılığı azaltmaq və qida

məhsullarının özünütəminetmə səviyyəsini artırmaqdır. Bu da ixrac potensialını artırmağa imkan verir.

Ölkəmizdə bu istiqamətdə qeyri-neft sektorun inkişafında fındıqçılıq, tütünçülük, üzümçülük, çayçılıq, pambıqçılıq, baramaçılıq, heyvandarlıq və başqa sahələr inkişaf olunur.

Fındıq böyük ixrac potensialı olan məhsuldur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə, Azərbaycan fındıq istehsalı üzrə dünyada dördüncü yeri tutur. Ölkəmizdə ildə təqribən 35 min ton fındıq istehsal olunur. Fındıqçılığın inkişafının sürətləndirilməsi, fındıq pöhrələrinin tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamına əsasən 700 min manat ayrılıb. Dövlət fermerlərə lazımi avadanlıq, texniki tədbirlər və tinglərin alınması dövlət hesabına həyata keçirilir: alır və fermerlərə pulsuz verir.

2016-cı ildən başlayaraq respublikada həm fındıq istehsalı, həm də əkin sahələri 40% artırılıb. Gələcəkdə perspektiv hədəf 13 rayonda fındıq bağlarının sahəsini 80 min ha çatdırmaqdır. Qeyd etməliyik ki, fındıq məhsulu ixracında respublika üçün çox önəmli və valyuta qətirən məhsuldur. 2016-ci ildə bu məhsulun xarici bazarda satışından ölkəyə 105 milyon dollar vəsait daxil olub. Hazırda 46 rayonda fındıq yetişdirilməsi üçün potensial var. Hesablamalara görə, fındıq istehsalını və ixracını iki dəfə artırmaq, əldə olunan valyutanı 200 milyona asanlıqla çatdırmaq mümkündür. Cari ilin birinci rübündə də 20 milyon dollarlıq fındıq ixrac olunub. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqatisədə 3 faiz çoxdur.

Bu sahənin inkişafı və perspektivləri Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının yaradılmasını şərtləndirib. Assosiasiya müvafiq vergi qanunvericiliyinin təkmilləşdirilməsi və ixracın rəsmiləşdirilməsi prosedurları istiqamətində aidiyyəti qurumlarla birgə iş aparır. Eyni zamanda yeni bazarlar araşdırılır, idxalçılar və alıcılar arasında əlaqələr qurulur. Fındıqçılığın inkişafında Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının xüsusi rolu var. Bu Assosiasiya cari ilin ilk üç ayı ərzində 62 min fındıq ağacı yetiçdirərək yeni tingçilik təcrübə stansiyası yaradıb.

Ötən əsrin 70-80-ci illərində respublikada çaya olan tələbatın təqribən 65-70%-ı yerli istehsal hesabına ödənilirdi, 2016-ci ildə isə bu rəqəm 44,9% təşkil etmişdir. 2017-ci il sentyabrın 3-də Lənkəranda keçirilən çay, çəltik və sitrus meyvələrinin istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində çayçılığın inkişafı ilə bağlı geniş müzakirə aparılıb. Bu sahənin yenidən dirçəldilməsi üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilməlidir: çay plantasiyalarını tədricən bərpa edilməli, yeni çay plantasiyalari salınmalıdır, iri çayçılıq və tingçilik təsərrüfatları yaradılmalıdır, xüsusi texnika gətirilməlidir.

Müşavirədə qeyd edildi ki, 2017-ci ildə ölkəmizə 12 min 600 ton cay idxal edilərək 45 milyon dollar vəsait sərf olunub. 2016-ci ildə 1100 ton çay ixrac edilib və ölkəmizə 6 milyon 100 min dollar məbləğində valyuta qəlib. Statistik rəqəmlərə nəzər yetirdikdə görünür ki, burada tarazlıq ölkəmizin xeyrinə deyil, idxal ixracdan çoxdur. Bunu məhsul istehsalını çoxaltmaqla aradan qaldırmaq olar.

Bu məqsədlə də yeni çayçılıq təsərrüfatları yaradılır, qabaqcıl texnologiyalar tətbiq edilir. Hazırda çayçılığın problemlərindən biri suvarma suyu ilə təminatıdır. Bir çox təsərrüfatlar sahələri vaxtında suvara bilmədikləri üçün ziyan çəkir. Bu da məhsuldarlığın aşağı düşməsinə təsir göstərir. Təbii ki, bu problem də həll olunandan sonra əhali daha çox və daha keyfiyyətli Azərbaycan çayı ilə təmin olunacaq, ixrac artacaq.

Tütünçülük – valyuta gətirən sahədir. Azərbaycanda sovet vaxtında 50-60 min ton quru tütün istehsal olunurdu. 2016-ci ildə 3500 ton quru tütün tədarük edilib. Əsas məqsəd birinci mərhələdə onu 3 dəfə artırmaqdır. Azərbaycanda 10 min ton quru tütün istehsal olunmalıdır. Dövlət tərəfindən yerli fermerlərə kömək olaraq, Prezidentin müvafiq sərəncamına əsasən, istehsal olunan və emal müəssisələrinə satılmış quru tütünün hər 1 kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə fermerlərə 0,05 manat məbləğində subsidiya hesablanır. Yeni ixrac bazarlarının axtarılması ilə bağlı çox ciddi addımlar atılır.

Şəkər çuğunduru istehsalı ixractutumlu və gəlirli sahədir. Statistik məlumatlara görə,

şəkər çuğunduru əkinində müəyyən irəliləyişlər əldə olunub. İndiyədək nəzərdə tutulan 18 min 754 hektar sahədən 14 min 93 hektarında əkin aparılıb. Ümumiyyətlə, 2017-ci il 27 rayonda şəkər çuğunduru yetişdiriləcək. Ölkəmizdə 10 il əvvəl şəkər zavodu yaradılsa da, o, uzun illər xaricdən gətirilən xammal hesabına işləyib. İndi bu sahədə idxaldan asılılıq aradan qaldırılmalı, şəkər çuğunduru istehsalı və emalı inkişaf etdirilməlidir. Artıq bununla bağlı real dövlət dəstəyi göstərilir. Prezident İlham Əliyevin aprelin 4-də imzaladığı fərmana əsasən, emal müəssisələrinə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə istehsalçılara 4 manat məbləğində subsidiya ödəniləcək. Hazırda İmişli Şəkər Zavodunun gündəlik emal potensialı 10 min tona çatdırılıb. Zavod Azərbaycanın tələbatını üç dəfə ödəyəcək gücə malikdir. Bu o deməkdir ki, zavod tam gücü ilə işləyərsə, istehsal edilən məhsulun üçdə iki hissəsini ixrac etmək olar.

NƏTİCƏ

Ümumiyyətlə, emal sənayesinin ixrac potensialının yüksəldilməsi üçün aşağıdakılar reallaşdırılmalıdır:

İxrac məhsullarının istehsal həcmi xarici bazar tələbatına uyğunlaşdırılmalıdır.

İxracın genişləndirilməsi Azərbaycanda istehsal olunan mal və məhsulların keyfiyyətinin Avropa standartlarına çatdırılması da vacib məsələlərdən biridir.

- Qeyri-neft sektorunda qida məhsulları istehsalında ixrac potensialının əsası olan meyvə şirələri və nar şirəsi dünya bazarı üçün maraqlıdır. Hazırda dünya bazarında nar şirələrinə, fındığa tələbat təklifdən çoxdur.
- Ölkəmizdə böyük imkanlardan biri də pambıqçılıq, baramaçılıq, ipəkçiliklə əlaqədardır.
- Ixrac potensialının artırılması ilə əlaqədar qablaşdırma məsələləsi də vacibdir. Dünyanın aparıcı şirkətləri marketinqə, məhsulunun reklamına, dizaynına böyük önəm verilir. Azərbaycanda qablaşdırma sənayesi yaradılmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. www.president.az. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası
2. www.president.az. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”
3. www.president.az. Strateji Yol Xəritəsi
4. http://customs.gov.az/
5. http://www.stat.gov.az/
6. Hacıyev F.Ş. Azərbaycanda strateji yol xəritələrinin gerçəkləşməsində ixrac potensialının təhlili və inkişaf perspektivləri.”İqtisadiyyat qazəti” may 2017-ci il.
7. Дубков С., Дадалко С. Формирование и оценка экспортного потенциала промышленных предприятий. Банкайский вестник, Минск, 2011. с.29.
8. “Made in Azerbaijan”nın vahid pəncərəsi. “Azərbaycan qəzeti” 19.09.2017 il
9. Rüstəm Kamal. Çayçılığın inkişafı bu sahədə ixracı artıracaq. “Azərbaycan” qəzeti. 21.09.2017 il
10. Azərbaycanın inkişaf strategiyası: ənənəvi təsərrüfat sahələrinin dirçəldilməsi ixrac potensialını artırır, yeni iş yerləri yaranır. “Azərbaycan” qəzeti. 03 İyun 2017.
11. Əliyev S. Qazaxda fındıçılıq inkişaf etdirilir. "Azerbaycan" qəzeti 19.09.2017-ci il

Узун Э. И.
Научный сотрудник Института экономики
АН Азербайджана

Оценка современного состояния экспортного потенциала перерабатывающей промышленности в Азербайджанской Республике

Резюме

Цель исследования – исследование существующего положения экспортного потенциала перерабатывающей промышленности в Азербайджанской республике.

Методология исследования - сравнительный и аналитический анализ, систематический подход

Результаты исследования – исследование современного состояния импортно-экспортных возможностей в обрабатывающей промышленности, решение возникающих проблем

Ключевые слова: *оценка, импорт, экспорт, интеграция, потенциал, стратегия, экономические реформы*

Uzun E. İ.
Researchfellow, Institute of Economics, ANAS

The estimation modern condition of export potential of processing industry in Azerbaijan Republic

Resume

The purpose of the study is to study the current state of the export potential of the processing industry in the Republic of Azerbaijan

The methodology of the study is a comparative and anatolical analysis, a systematic approach

Findings - the current state of imports and export opportunities in the manufacturing industry, the solution of emerging problems

Key words: *estimation, import, export, integration, potential, strategiya, economic reforms*.

Daxil olub: 27. 01.2017

Rəy verib: AMEA İqtisadiyyat Institutunun _ şöbəsinin əməkdaşı "*Sənaye siyasəti və investisiya problemləri*" şöbəsinin müdiri i. e. d., prof. *Hüseynov T. H.*